# Oktay Şamil haqqında bir neçə söz...



*Oktay Şamil 1944-cü il fevralın 17-də Ağsu rayonunun Bico kəndində anadan olub. Kənddəki orta məktəbi bitirəndən sonra Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsində oxuyub.*

*Universiteti başa vurandan sonra Şamaxı rayon Həmyə kənd səkkizillik məktəbində ədəbiyyatdan dərs deyib. Daha sonra "Yeni Şirvan" qəzetinin nəzdində yaranan yerli radioda təşkilatçı müxbir işləyib. Daha sonra Azərbaycan Sovet Ensiklopediyasının Baş redaksiyasında incəsənət şöbəsinin əməkdaşı kimi çalışıb.*

*Sonrakı illər Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində "Uşaq" və "Gənclik" redaksiyalarında şöbə müdiri, bir müddətdən sonra isə baş redaktor müavini olub...*

*İk ciddi yazısı doğulduğu torpaqla - Şamaxı ilə bağlıdır. 1965-ci ildən respublika mətbuatında Oktay Şamilin şeirləri tez-tez işıq üzü görüb. "İstək" adlı ilk kitabçası 1970-ci ildə çap olunub. Türkiyədə Dəyanət Vaqfının təşkil etdiyi poeziya yarışında xüsusi mükafata layiq görülüb. Həmən illərdə Türkiyə, İran, Bolqarıstan, Suriya mətbuatında Oktay Şamilin tez-tez şeirləri çap olunurdu...*

*Oktay Şamil həm də şeirlərinə ən çox mahnı bəstələnən şairlərimizdən biridir. Müxtəlif illərdə tanınmış bəstəkarlardan Elza İbrahimova, Eldar Mansurov, Tofiq Babayev, Ruhəngiz Qasımova Oktay Şamilin sözlərinə, dinləyicilər və tamaşaçılar tərəfindən çox sevilən mahnılar bəstələmişlər ("Sevgimiz elə bu qədərmiş", "Qayıt ana", "Yox, mən səni görməmişəm", "Bağışla", "Narıncı dünya", "Suraxanı", "Sevgi nədir bilərsən", "Bəyaz gecələr" və bir sıra başqa nəğmələr bu qəbildəndir). Xalq artistləri Flora Kərimova, İlhamə Quliyeva, Yalçın Rzazadə, Azər Zeynalov , "Qaya" vokal kvarteti, Səməd Səmədov, Türk müğənnisi Hayfı, bolqar müğənnisi Lili İvanova və başqaları Oktay Şamilin sözlərinə yazılan mahnıları ustalıqla ifa etmişlər. Həmin mahnılar indi də Azərbaycan radiosunun qızıl fondunda saxlanılır.*

*Oktay Şamil 5 şeir kitabının və bir seçilmiş əsərlər toplusunun müəllifidir.*

*"Qobustan"a təqdim etdiyi bu dram əsəri isə tanınmış şair və publisistin Oktay Şamilin dramaturgiya sahəsində ilk təcrübəsi sayıla bilər.*